F. Köçərli adına Respublika Uşaq Kitabxanası

# Söz və duyğu şairi

## *Nəriman Həsənzadə - 95*



**Bakı - 2026**

***Veblioqrafiya***

clb.az

Məlumat-biblioqrafiya şöbəsi

Ağayeva İranə

Bakı şəhəri, S.Vurğun küçəsi 88

(+99412) 597-08-79, daxili nömrə: 25

info@clb.az | ushaqkitabxanasi@gmail.com | childlibbaku@yahoo.com

instagram.com/childlibazerbaijan

facebook.com/Usaqkitabxanasi

youtube.com/@ChildLibAzerbaijan

twitter.com/childlibaze

© F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2026.

# Giriş

Müasir Azərbaycan poeziyasının ən görkəmli nümayəndəsi, Xalq şairi Nəriman Əliməmməd oğlu Həsənzadə 1931-ci il fevral ayının 18-də Qazax rayonunun Poylu stansiyasında (indiki Ağstafa rayonu ərazisi) anadan olmuşdur. 1 yaşında atasını, 23 yaşında isə anasını itirən gənc Nəriman ibtidai və orta təhsilini öz rayonunda almış, 1949-1953-cü illərdə indiki Gəncə Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsini bitirmişdir. 1954-1956-cı illərdə ordu sıralarında xidmətdə olmuşdur. 1961-ci ildə Moskvada M.Qorki adına Ədəbiyyat İnstitutunu bitirərək ikinci ali təhsil almış, Moskvada ikiillik Ali Ədəbiyyat Kurslarında da oxumuşdur.

Nəriman Həsənzadə mətbuatda 1953-cü ildən çıxış edir. Əsərləri keçmiş SSRİ və bir çox xarici ölkə xalqlarının (ingilis, fransız, alman, fars, italyan, çex, hind, ərəb, xorvat və s.) dillərinə tərcümə edilmişdir.

Xalq şairi 34 bədii – poetik toplunun, "Tariximiz, taleyimiz” adlı irihəcmli elmi-ədəbi-tənqidi məqalələr kitabının müəllifidir. 2004-cü ildə "Seçilmiş əsərləri” dövlət tərəfindən latın qrafikası ilə kütləvi tirajla nəşr edilmişdir. 100-dən artıq şeirinə musiqi bəstələnmişdir. Bəstəkar R. Mustafayevlə "Nəriman” və N. Əliverdibəyovla "Vətən” kantatalarını işləmişdir.

Görkəmli dramaturq:

1954-cü ildə Azərbaycan Yazıçılar İttifaqının (Birliyinin), sonralar isə İdarə Heyətinin üzvü seçilmişdir.

1991-1995-ci illərdə Azərbaycanın Xalq deputatı olmuşdur.

Əməkdar İncəsənət xadimidir.

"Şərəf nişanı” ordeni, Azərbaycanın və Belarusun Fəxri Fərmanları ilə təltif olunmuşdur.

2001-ci ildə Müstəqil Azərbaycan Respublikasının "Şöhrət” ordeni ilə təltif olunmuş və Fərdi prezident təqaüdünə layiq görülmüşdür.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 2005-ci ildə Xalq şairi fəxri adı verilmişdir.

2016-cı ildə Cəfər Cabbarlı mükafatına layiq görülmüşdür.

Mədəniyyət Nazirliyinin təsis etdiyi "Nizami Gəncəvinin 880 illiyi (1141-2021)" xatirə nişanı ilə təltif edilib.

Hazırda Milli Aviasiya Akademiyasında "Humanitar fənlər kafedrası”nın müdiri işləyir, dosentdir.

F.Köçərli adına Respublika Uşaq Kitabxanasının Məlumat-biblioqrafiya şöbəsi Nəriman Həsənzadənin 95 illik yubileyini təbrik edir və gələcək fəaliyyətində ona uğurlar arzu edərək şair haqqında olan çap məhsullarının tammətnli biblioqrafik siyahısı, görkəmli şəxsiyyətlərin şair haqqında söylədikləri fikirlər, foto və videoqalereyanın yer aldığı veblioqrafiya hazırlayaraq oxucuların istifadəsinə təqdim edir.

## Nəriman Həsənzadəyə ünvanlanan təbrik

Hörmətli Nəriman Həsənzadə!

Sizi – müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsini 95 illiyiniz münasibətilə səmimi-qəlbdən təbrik edir, Sizə möhkəm cansağlığı arzulayırıq.

Siz milli ədəbiyyatın çoxəsrlik parlaq ənənələrinə sadiq qalaraq, özünəməxsus ifadə tərzi və dəst-xəttinizlə xalqımızın poetik fikir xəzinəsinə dəyərli töhfələr bəxş etmiş söz ustasısınız. Ötən əsrin 50-ci illərində poeziya aləminə qədəm qoyduğunuz ilk vaxtlardan ədəbiyyatımıza yeni nəfəs gətirərək, geniş oxucu auditoriyasının xüsusi rəğbətini qazanmısınız.

Qayəsini Vətən məhəbbəti, milli azadlıq duyğuları, ənənəvi dəyərlərə bağlılıq və mənəvi ucalığa çağırış təşkil edən əsərləriniz Sizi həmişə ədəbi prosesin ön mövqelərində saxlamışdır. Həzinliyi və səmimiliyi, dil səlisliyi, axıcılığı və təbiiliyi ilə seçilən şeirlərinizdə müasirlərimizin hiss və düşüncələri öz dolğun bədii ifadəsini tapmışdır. Xalqın yaddaşının poeziyadakı əksi olan poema və mənzum pyeslərinizdə keçmişimizin uzaq və yaxın dövrlərinin taleyüklü mühüm hadisələrini və böyük şəxsiyyətləri tarixi həqiqətlər işığında dərin vətənpərvərlik və milli dövlətçilik ruhunda canlandırmısınız. Azərbaycan xalqının mübarizliyini və qəhrəmanlığını tərənnüm edən bu əsərlər teatr səhnələrində uğurla tamaşaya qoyulmuşdur.

Ədəbi şəxsiyyətinizlə vəhdətdə alim, pedaqoq və ictimai xadim kimi səmərəli fəaliyyətiniz Vətənə və xalqa ləyaqətlə xidmətin bariz nümunəsidir.

İnanırıq ki, milli məfkurəyə sədaqət və mənəvi saflıq aşılayan yaradıcılığınız gənc nəslin milli mənlik şüurunun formalaşmasında bundan sonra da əhəmiyyətli rol oynayacaqdır.

Ən xoş arzularla,

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti,

**Mehriban Əliyeva**
Azərbaycan Respublikasının Birinci vitse-prezidenti

Bakı şəhəri, 18 fevral 2026-cı il

**N.Ə.Həsənzadənin “Heydər Əliyev” ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan mədəniyyətinin inkişafında müstəsna xidmətlərinə görə Nəriman Əliməmməd oğlu Həsənzadə “Heydər Əliyev” ordeni ilə təltif edilsin.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 18 fevral 2026-cı il






# Nəriman Həsənzadə haqqında verilmiş fərmanlar və sərəncamlar

***N.Ə.HƏSƏNZADƏNİN "ŞÖHRƏT" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA***

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN**

**F Ə R M A N I**

Azərbaycan ədəbiyyatının inkişafındakı xidmətlərinə görə Nəriman Əliməmməd oğlu Həsənzadə "Şöhrət" ordeni ilə təltif edilsin.

**Heydər ƏLİYEV,**
***Azərbaycan Respublikasının prezidenti***

**Bakı şəhəri, 3 dekabr 2001-ci il**

**ŞAİR NƏRİMAN HƏSƏNZADƏYƏ**

**Hörmətli Nəriman Həsənzadə!**

Sizi - xalqımızın tanınmış şairini 70 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Siz zəngin ənənələrə malik olan müasir Azərbaycan poeziyasının görkəmli nümayəndələrindənsiniz. Ulu əcdadlarımızdan bizə miras qalmış yüksək mədəni-mənəvi dəyərləri təcəssüm etdirən əsərləriniz oxucular arasında sizə dərin ehtiram və məhəbbət qazandırmışdır. Xalqımızın qəhrəmanlıq ruhu, yüksək insani keyfiyyətləri, Vətənə, xalqa sədaqət şeirlərinizin başlıca qayəsini təşkil edir. Ana təbiətin füsunkarlığını, oğul-qızlarımızın qeyrəti və saf məhəbbətini vəsf edən əsərləriniz şeirsevərlər tərəfindən həmişə böyük rəğbətlə qarşılanmışdır. Şeirlərinizə bəstələnmiş çoxsaylı mahnılar dilimizin tükənməz xəzinəsindən məharətlə istifadə etmək bacarığınıza dəlalət edir.

Respublikamızda və onun hüdudlarından kənarda çap olunmuş əsərləriniz gənc nəslin nikbinlik, mənəvi saflıq və vətənpərvərlik ruhunda tərbiyə edilməsinə öz töhfəsini vermişdir. Xalqımızın keçmişini canlandıran mənzum səhnə əsərləriniz öz bədii məziyyətləri, məzmun dolğunluğu və mövzu aktuallığı ilə teatrlarımızın repertuarlarında layiqli yer tutmuşdur.

Sizin ədəbiyyat və mətbuat sahəsindəki təşkilatçılıq fəaliyyətiniz də təqdirəlayiqdir. "Ədəbiyyat və incəsənət" qəzetinin baş redaktoru kimi uzun illik səmərəli işiniz Azərbaycan ədəbiyyatının inkişafında öz rolunu oynamışdır. İnanıram ki, siz bundan sonra da Azərbaycan ədəbiyyatının inkişafı naminə var qüvvənizi sərf edəcək, poeziya həvəskarlarını yeni sənət inciləri ilə sevindirəcəksiniz.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik və yaradıcılıq uğurları arzulayıram.

**Heydər ƏLİYEV,**
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 3 dekabr 2001-ci il**

**Hörmətli cənab Nəriman Həsənzadə!**

**Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə təyin olunmağım münasibətilə məni təbrik etdiyiniz üçün dərin minnətdarlığımı bildirirəm. Sizə və əzizlərinizə möhkəm cansağlığı, xoşbəxtlik və bütün işlərinizdə uğurlar arzulayıram!**

**Hörmətlə,** İlham Əliyev

**8 avqust, 2003**

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ**

**Əməkdar incəsənət xadimi şair Nəriman Həsənzadəyə**

**Hörmətli Nəriman Həsənzadə,**

**Azərbaycan Respublikasının Prezidenti seçilməyim münasibətilə səmimi təbrikinizə və xoş arzularınıza görə Sizə təşəkkürümü bildirirəm.**

**Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar arzulayıram.**

**Hörmətlə,**

**İlham Əliyev**

**18 oktyabr, 2003**

**Azərbaycan Respublikası Prezidentinin**

**S Ə R Ə N C A M I**

Azərbaycan ədəbiyyatı və mədəniyyətinin inkişafındakı xidmətlərinə görə Yazıçılar Birliyinin aşağıdakı üzvlərinə Azərbaycan Respublikasının fəxri adları verilsin:

"Xalq yazıçısı" fəxri adı

Abdullayev Çingiz Akif oğlu
Abdullayev Gülhüseyn Hüseyn oğlu
(Gülhüseyn Hüseynoğlu)

**"Xalq Şairi" fəxri adı**

***Həsənzadə Nəriman Əliməmməd oğlu.***
*Rüstəmxanlı Sabir Xudu oğlu*

"Əməkdar incəsənət xadimi" fəxri adı

*Cəfərov Ayaz Rza oğlu (Ayaz Vəfalı)*
*Əliyev Çingiz Əli oğlu (Çingiz Əlioğlu)*
*Hüseynov Rafael Baba oğlu*
*Məmmədsalahlı Ələkbər Baba oğlu*
*(Ələkbər Salahzadə)*
*Vəliyeva Afaq Məsud qızı (Afaq Məsud)*

**İlham ƏLİYEV,**
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 12 iyul 2005-ci il**

**N.Ə.Həsənzadənin "Şərəf" ordeni ilə təltif edilməsi haqqında**

**Azərbaycan Respublikası Prezidentinin**

**S Ə R Ə N C A M I**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərinə görə Nəriman Əliməmməd oğlu Həsənzadə "Şərəf" ordeni ilə təltif edilsin.

**İlham ƏLİYEV,**
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 19 aprel 2011-ci il**

## Görkəmli şəxsiyyətlər Nəriman Həsənzadə haqqında

“Nəriman olduqca həssas bir şairdir. O, bir qartalın uçuşunda, bir lalənin duruşunda, bir körpənin baxışında bütün kainatı, ictimai aləmi və məna dolu həyatımızı görmək istəyir.”

**Mir Cəlal Paşayev**

*Xalq yazıçısı*

“Nəriman Həsənzadə dünyada gözəllik, zəriflik, nəciblik axtarır və bunları bəzən olmayan yerdə də görür. Çünki gözəllik və zəriflik bu şairin sənət idealıdır. O, ancaq bu ideya eşqinə yazıb-yaradır. Bax budur onun nəğmələrinin baş motivi.”

**Bəxtiyar Vahabzadə**

*Xalq şairi*

“Bütün müraciətlərə müsbət cavab vermək çox müşkül məsələdir. Mütləq kimsə narazı qalacaq.Ancaq 3-4 adam tanıyıram ki, bu məsələdə istisnadır. Onlardan biri də Nəriman Həsənzadədir. Elə bir adam tapmazsan ki, Nəriman müəllim onu naümid geri qaytarsın.”

**Çingiz Abdullayev**

*Xalq yazıçısı*

“Nəriman Həsənzadə haqqında danışmaq ümumən Müasir Azərbaycan poeziyası haqqında danışmaq deməkdir. Şairlik Nəriman Həsənzadənin stixiyasıdır. O, təkcə şeirində, nəsrində, publisistikasında, dramaturgiyasında deyil, adi məişətdə də şairdir. Yazanda da, yazmayanda da şairdir...”

**Nizami Cəfərov**

*Əməkdar elm xadimi, professor*

“Müasir Azərbaycan ədəbiyyatında saf, xalis lirikanın yaradıcıları sırasında Nəriman Həsənzadənin xüsusi yeri vardır. Şeirləri təpədən dırnağa qədər lirizm hadisəsidir. Hətta Nəriman Həsənzadənin danışıq tərzində də lirik bir həzinlik müşahidə olunur.”

**İsa Həbibbəyli**

*Əməkdar elm xadimi, professor*

“Şair dostuma deyirəm: Nəriman müəllim, 80-90 nədir ki ? Sənin bəşəri poeziyan min illər boyu Azərbaycan poeziya kəhkəşanında ən parlaq ulduzlardan biri olacaq.”

**Musa Quluzadə**

*Nasir, dramaturq*

"Uzun müddətli müalicədən sonra Bakıya qayıdan günü məni aeroportdan evə aparan avtomobilin radiosu ilə şair Nəriman Həsənzadənin sözlərinə yazılmış "Mənim dünyam" mahnısı səslənirdi. Mahnı məni bərk kövrəltdi. Heç vaxt belə olmamışdım. Sanki dünyaya 2-ci dəfə gəlmişdim.

...Nəriman istedadlı şairdir. Onun yaradiciliği tərifə layiqdir.

**Məmməd Araz**

*Xalq şairi*

"Mövzu müxtəlifliyi, insan arzularinin, cəmiyyət həyatinin və zəmanənin çoxcəhətli, zəngin boyalarla işlənməsi hər bir poetik əsərin məziyyətidir. Nəriman həsənzadənin poeziyasi bu cəhətdən də oxucuda dərin maraq oyadan poeziyadir. İdeala, gözəlliyə, mənəvi safliğa sadiq olan insanliq və vətəndaşliq hisslərini şeirlərinin canina, ruhuna hopduran bu şair daima axtarişdadir, onun poetik fikri yorulmaq bilmir, oxucuya arasikəsilmədən yeni əsərlər təqdim edir."

**Mirzə İbrahimov**

*Xalq yazıçısı*

"Nəriman həsənzadə fikir və məna şairidir... Həyatda son dərəcə zərif, incə, həssas və bəzən həddindən artiq həlim, yumşaq tanidiğimiz nəriman həsənzadə bədii yaradiciliq aləmində kompromis tanimir. O, son dərəcə mərd və prinsipialdi..."

**Xəlil Rza Ulutürk**

*Xalq şairi*

## Kitabları













Seçilmiş əsərlər. C. 1. – Bakı, "Aspoliqraf", 2022. – 400 s.

Seçilmiş əsərləri. C. 2. – Bakı, "Aspoliqraf", 2022. – 568 s.

Seçilmiş əsərləri. C. 3. – Bakı, "Aspoliqraf", 2022. – 576 s.

Seçilmiş əsərləri. – C. 4. – Bakı, "Aspoliqraf", 2022. – 520 s.




Seçilmiş əsərləri, Elmi, ədəbi-tənqidi əsərlər : 7 cilddə. C. 3. / N.Həsənzadə ; tərt. Ed. N.Həsənzadə ; red. G.Əmrullahqızı. Bakı : Prometey, 2011. – 354 s : portr., fotoşək., ill., 22 sm.

Kitabda Azərbaycan ədəbiyyatının müxtəlif dövrlərinə, görkəmli sənətkarların yaradıcılığına və ədəbi prosesin inkişafına dair məqalə və tədqiqatlar toplanmışdır.




Seçmə şeirlər / N.Həsənzadə. - Bakı : Kitab klubu, 2015. - 400 s. : rəngli foto ; 21 sm.

Bu kitaba daxil edilmiş əsərlər müəllifin müxtəlif illlərdə nəşr olunan kitabları əsasında tərtib olunub. Məqsəd gəncləri gözəl şairimizin yaradıcılığı ilə yaxından tanış etmək, poeziya janrına olan marağı daha da artırmaqdır.




Heç nə istəməyən qız : şeirlər / N.Həsənzadə ; red. L.Qarayeva ; rəs. E.Lazımov. - Bakı : Gənclik, 1993. - 50 s. - kiril əlifbası ilə.

Bu kitab Nəriman Həsənzadə tərəfindən yazılmış, insanın daxili dünyasını, mənəvi dəyərlərini və sadəliyin gözəlliyini əks etdirən bədii əsərdir. Kitabda hadisələr və obrazlar vasitəsilə insan münasibətləri, həyatın mənası və saf duyğular ön plana çıxarılır. Müəllif əsərdə heç nə istəməyən, lakin mənəvi zənginliyi ilə seçilən bir qız obrazı yaradaraq oxucunu düşünməyə və həyatda əsl dəyərləri qiymətləndirməyə sövq edir.




Nabat xalanın çörəyi : povest / N.Həsənzadə ; rəs. E.Xalıqov. - Bakı : Gənclik, 1986. - 184 [1] s. : portr. ; 16 sm. - kiril əlifbası ilə.

Kitabda Nabat xala obrazı vasitəsilə əməksevərlik, xeyirxahlıq və insanlara kömək etmək kimi xüsusiyyətlər təsvir olunur. Əsər oxuculara zəhmətin müqəddəsliyini, paylaşmağın və mərhəmətin insan həyatındakı əhəmiyyətini çatdırır.




[Nəriman : epik-dramatik poema / N.Həsənzadə ; red. E.Borçalı. - Bakı : Azərnəşr, 1968. - 150 [6] s. : şək. - kiril əlifbası ilə.]

“Nəriman” epik-dramatik poeması görkəmli ictimai-siyasi xadim Nəriman Nərimanovun həyat və fəaliyyətinə həsr olunmuş əsərdir. Poemada Nərimanovun xalqına bağlılığı, azadlıq və ədalət uğrunda mübarizəsi, həmçinin dövrün ictimai-siyasi hadisələri bədii şəkildə təsvir olunur.

Nizami : müasirim haqqında poema / N.Ə.Həsənzadə ; red. Q.İ.İsabəyli. - Yenidən işlənmiş 2-ci nəşr. - Bakı : Şirvannəşr, 2009. - 108 s. : rəngli foto ; 18 sm.




Kitabda Nizami Cəfərova həsr olunmuş və onun şəxsiyyətini, elmi fəaliyyətini və Azərbaycan dili ilə bağlı xidmətlərini tərənnüm edən şeirlər yer alır.




Nuru Paşa [Mətn] : poema / N.Həsənzadə ; ön söz : N.Cəfərov ; red. M.Ələkbərli. – Bakı, Oğuz eli, 2010. – 104 s.

Kitabda xüsusilə Bakı uğrunda döyüş və Bakı şəhərinin azad edilməsi zamanı rəhbərlik etdiyi Qafqaz İslam Ordusunun fəaliyyəti, Azərbaycan xalqına göstərdiyi dəstək və tarixi xidmətləri haqqında məlumat verilir. Əsər həm tarixi faktlara, həm də dövrün hadisələrinə əsaslanaraq Nuru Paşanın şəxsiyyətini və Azərbaycan–Türkiyə qardaşlığını əks etdirir.

Kulturologiya [Mətn] : Dünya mədəniyyəti tarixi : Dərslik / N.Həsənzadə ; elmi red., F.Məmmədov ; red. : G.Pənahova ; rəyçilər : N.Cəfərov, C.Mustafayev. – B. : Polygraphic Production, 2005. – 278 s.




Kulturologiya sahəsinə həsr olunmuş bu kitabda mədəniyyət anlayışı, onun yaranması və inkişaf qanunauyğunluqları elmi şəkildə izah edilir.




[Pompeyin Qafqaza yürüşü : dramatik xronika / N.Həsənzadə ; red. İ.Öməroğlu. - Bakı : Azərbaycan Ensiklopediyası, 1995. - 62 s. ; 21 sm. - kiril əlifbası ilə.]

Kitabda qədim Roma sərkərdəsi Pompeyin Qafqaza yürüşü və bu yürüş zamanı Qafqaz Albaniyası ərazisində yaşayan xalqların vətənlərini qorumaq uğrunda apardıqları mübarizə bədii şəkildə təsvir olunur.




İllər... pillələr... talelər... [Mətn] / N.Həsənzadə ; red. N.Həsənzadə. – B. : Oğuz eli, 2011. – 200 s.

Kitabda müxtəlif dövrlərdə yaşanmış hadisələr, insanların həyat yolu və taleləri bədii və publisistik üslubda təqdim olunur.




Sən bağışladın : şeirlər və poemalar / N.Həsənzadə ; red. M.Ələkbərli. - Bakı : Gənclik, 1979. - 152, [1] s. : şək. ; 17 sm. - kiril əlifbası ilə.

Nəriman Həsənzadənin bu kitabı oxucunu insan münasibətləri, sevgi və bağışlama mövzularında dərin düşüncələrə aparır. Kitabda müəllifin duyğulu və təsirli şeirləri yer alır, hər misra insan qəlbinin incəliklərini və emosional təlatümlərini əks etdirir

## Əsərləri kitablarda

Qoru ; Nağıl ; Yaşamaq üçün və b. : şeirlər // Azərbaycan sevgi poeziyası : 3 cilddə / tərt.ed. H.A.İsaxanlı. 2-ci kitab. - Bakı : Xəzər Universiteti Nəşriyyatı, 2009. - 286 s. : rəngli foto ; 22 sm.




Bu kitaba 20-ci yüzillikdə yaşayıb yaratmış bir sıra şairlərin əsərləri daxil edilmişdir. Kitabda şimallı-cənublu keçmiş şairlərimizdən Abbas Səhhət, Səməd Mənsur, Abdulla Şaiq, Məhəmmədhüseyn Şəhriyar, Nəriman Həsənzadə kimi yaradıcılığını yaxşı bildiyimiz şairlərimizin şeirləri yer alır.

## Əsərləri dövri mətbuatda

Arxada uçurum, qarşıda zaman ; Latın əlifbası ; Zavallı və b. : şeirlər // Ədəbiyyat qəzeti. – 1997. – 31 yanvar. - № 5. – S. 3.

Dostum, xalq şairi Fikrət Qocaya öz dilindən // Ədəbiyyat qəzeti. – 2016. – 3 dekabr. – S. 9.

Xəlilin göz yaşı ; Burjua şairi ; Sənin təbəssümün və b. : şeirlər // Ədəbiyyat qəzeti. – 2003. – 10 oktyabr.

Qafqaz : şeir // Azərbaycan. – 1995. – 31 yanvar.

Nəsimi ; Yuxuda ; Dəniz və göz yaşı və b. : şeirlər / N. Həsənzadə // Ədəbiyyat qəzeti. - 2020. - 18 iyul. - № 24/25. - S. 4-5.

Ruhla görüş ; Gül, ey bəxtəvər ; Leyli necə qıydı və b. : şeirlər // Ədəbiyyat qəzeti. – 2013. – 24 may. – S. 5.

Salam, ay bizim dağlar ; Sən ocaqsan ; Elçiliyə mən gəlmişəm, a qızım : şeirlər // Ədəbiyyat qəzeti. – 2016. – 2 iyul. - № 25. – S. 4-5.

Sənə qurban : şeir // Günay. – 1995. – 30 may.

Yaşa səni : şeir // Azərbaycan. – 2019. – 6 oktyabr. - № 228. – S. 1.

Girov : şeir // Ədəbiyyat qəzeti. - 2011. - 22 aprel. - S. 3.

Karvan yolu // Respublika. – 2015. – 21 fevral. – S. 8.

## Haqqında kitablarda




Allahdan Nəriman Həsənzadəyə ömür möhləti istəyirik... // Ləman, F. Ölsəm yer xoş olar, qalsam el : 25 il mətbuatda / F.Ləman ; red. A.A.Aşırlı ; rəy.: S.X.Rüstəmxanlı, N.Q.Cəfərov ; məsl. S.Yusifova. - Bakı : [s. n.], 2011. - S. 272-274. : rəngli foto ; 22 sm.

Kitabda AYB-nin üzvü Fəridə Ləmanın işlədiyi və əməkdaşlıq etdiyi mətbuat orqanlarındakı yazılardan bir hissəsi toplanıb.

Şair Nəriman Həsənzadəyə açıq məktub // Paşayev, Q. Ədəbi məktublar / Q.M.Paşayev ; red., ön söz B.Əhmədli ; rəy. T.Məmmədova ; rəy. A.Xəlilova. - Bakı : Təhsil, 2015. - S. 23-30. : rəngli foto ; 20 sm.




Kitabda akademiklər Bəkir Nəbiyev, İsa Həbibbəyli, Nizami Cəfərov, Nəriman Həsənzadə, Sabir Rüstəmxanlı, Əflatun Nemətzadə, Vaqif Yusifli, Ağaverdi Paşayev və başqalarına ünvanlanmış maraqlı məktublar yer alır.

## Haqqında dövri mətbuatda

**95 illik ömrün salnaməsi kitabında Nəriman Həsənzadə fenomeni** // Ədəbiyyat qəzeti. – 2026. – 20 fevral. - № 6. – S. 3.

**Bayramov, Q.** Poetik hissin palitrası... : Nəriman Həsənzadə - 75 / Qurban Bayramov // Ədəbiyyat qəzeti. – 2006. – 17 fevral. – S. 2.

**Binnətova, A.** Təravətli, xoş niyyətli / Almaz Binnətova // Respublika. – 1991. – 2 mart.

**Cəfərov, N.** Azərbaycan poeziyasının azadlıq fəlsəfəsi, yaxud qol çək "Müstəqillik aktı"na, şair / Nizami Cəfərov // Ədəbiyyat qəzeti. – 2016. – 6 fevral. – S. 7.

**Cəfərov, N.** Bir şeirin poetikası : Nəriman Həsənzadənin "Dilənənlər" şeiri haqqında / Nizami Cəfərov // Azərbaycan gəncləri. – 1990. – 15 sentyabr.

**Cəfərov, N.** Xalqın sevimli şairi : Nəriman Həsənzadə - 85 / Nizami Cəfərov // Azərbaycan. – 2016. – 18 fevral. - № 37. – S. 11.

**Cəfərov, N.** Nəriman Həsənzadə / Nizami Cəfərov // Mədəni-maarif. – 2009. - № 3. – S. 20-22.

**Əliağaqızı, G.** Nəriman Həsənzadə səmimiyyəti / Günay Əliağaqızı // Kredo. – 2018. – 28 iyun. – S. 13.

**Əliyeva, A.** Ən çox sevdiyim şair : N.Həsənzadə - 60 / Azadə Əliyeva // Azərbaycan müəllimi. – 1991. – 15 fevral. – S. 4.

**Əsədov, V.** Səməd Vurğunun zəmanəti ilə / Vaqif Əsədov // Xalq qəzeti. – 2009. – 8 yanvar. – S. 7.

**Əziz, A.** Kişinin qadını varsa, ona batmaq olmaz : Nəriman Həsənzadə: "Hamı bu dünyada qocalacaq, amma tək qocalmaq dərd verir hərdən / Aygün Əziz // Kaspi. – 2016. – 8 yanvar. - № 87. – S. 21.

**Hacıyeva, M.** Nuru Paşa dastanı poetik qardaşlıq abidəsidir : Nəriman Həsənzadə - 80 / Maarifə Hacıyeva // Xalq qəzeti. – 2011. – 19 mart. – S. 8.

**Xələfli, Ə.** Heyrətdən üzü bəri, yaxud səmimiyyətin Nəriman Həsənzadə güzgüsü / Əli Rza Xələfli // Kredo. – 2015. – 10 aprel. – S. 1.

**Xəlilov, B.** Taleyinə şairlik yazılmış Nəriman Həsənzadə / Buludxan Xəlilov // Təhsil problemləri. – 2006. – 21-31 dekabr. - № 71-72. – S. 6.

**Xəlilov, Q.** Düşündürən poema / Qulu Xəlilov // Kommunist. – 1985. – 9 fevral.

**Xəlilzadə, F.** Bir şair ömrünü yaşatmaq üçün... : Nəriman Həsənzadə - 80 / Flora Xəlilzadə // Azərbaycan. – 2011. – 19 fevral. – S. 7.

**Xəlilzadə, F.** Etiraflar poeziyası : Nəriman Həsənzadə - 80 / Flora Xəlilzadə // Mədəniyyət. – 2011. – 18 fevral. – S. 13.

**Xəlilzadə, F.** Şöhrətin sevinci yaşa qalibdir : Nəriman Həsənzadə - 75 / Flora Xəlilzadə // Azərbaycan. – 2006. – 18 fevral. – S. 8.

**Xəlilzadə, F.** Ziyalılıq-aydınlıqdır / Flora Xəlilzadə // Azərbaycan müəllimi. – 1992. – 7 fevral. – S. 3.

**Xiləli, A.** Tariximizi özümüz yazanda : Nəriman Həsənzadə - 85 / A.Xiləli // Ədəbiyyat qəzeti. – 2016. – 17 dekabr. - № 50. – S. 29.

**Məmmədov, S.** Zirvələr gözləyir / Siracəddin Məmmədov // Azərbaycan müəllimi. – 1986. – 21 noyabr.

**Mirməmməd, G.** Nəriman Həsənzadə və teatr / G.Mirməmməd // Mədəniyyət. – 2016. – 24 fevral. - № 15. – S. 4.

**Mirzəyeva Z**. Apardı sellər Saranı : [Yazıçı, şair Nəriman Həsənzadə haqqında] // 525-ci qəzet. - 2020. - 1 sentyabr. - № 100. - S. 10.

**Mütəllibov, T.** Şairin inam nəğməsi / Tofiq Mütəllibov // Azərbaycan müəllimi. – 1990. – 30 noyabr.

**Mütəllibov, T.** Şöhrətin sevinci, yaşın kədəri : Nəriman Həsənzadənin anadan olmasının 60 illiyi / Tofiq Mütəllibov // Bakı. – 1991. – 18 fevral.

**Nəbiyev, A.** Mənəvi kamilliyə çağırış / Azad Nəbiyev // Bakı. – 1988. – 19 sentyabr.

**Nəriman Həsənzadə - 80** // Ədəbiyyat qəzeti. – 2011. – 18 fevral. – S. 4.

**Nəriman Həsənzadə - 95** // Ədəbiyyat qəzeti. – 2026. – 20 fevral. - № 6. – S. 3.

**Nəriman Həsənzadə "İstiqlal" ordeni ilə təltif olunub** // 525-ci qəzet. – 2021. – 19 fevral. – S. 9.

**Nəriman Həsənzadə, Xalq şairi: Bahar məhəbbət və gözəllik bayramıdır** // Xalq qəzeti. – 2023. – 19 mart. – S. 14.

**Osmanoğlu, M.** Ədalət istəyir şair zamandan... / Məti Osmanoğlu // Ədəbiyyat qəzeti. – 2016. – 14 may. – S. 26.

**Salmanov, Ş.** İncə hisslər, zərif duyğular... : Nəriman Həsənzadənin 60 yaşı / Şamil Salmanov // Azərbaycan. – 1991. - № 2. – S. 157-159.

**Sərvaz.** Söz sənətimizin bayramı / Sərvaz // Ədəbiyyat qəzeti. – 2020. – 15 fevral. - № 6. – S. 23.

**Şəfəq, T.** Nəriman Həsənzadə: “Ürəkdən gələni yazın” / Tamilla Şəfəq // Xalq qəzeti. – 2011. – 23 fevral. – S. 7.

**Ülvi, A.** Aviasiya elmimiz yüksəliş yollarında / Almaz Ülvi // Xalq qəzeti. – 2006. – 29 oktyabr.

**Yusifoğlu, R.** Şairin yeni poeması / Rafiq Yusifoğlu // Bakı. – 1985. – 15 aprel. – S. 3.

## Nəriman Həsənzadənin sözlərinə yazılmış mahnılar

Akif İslamzadə - Sənsən həyatım

Zeynəb Xanlarova – Xoşbəxtlik nəğməsi

Elmira Rəhimova - Zarafat

Şövkət Ələkbərova – Bahar nəğməsi

Şövkət Ələkbərova – Dedi tələsmə

Nisə Qasımova – Gül bir az

Zeynəb Xanlarova – Sən bağışladın

Xumar Qədimova – Ürəyim

Teymur Əmrah – Nərdivan

Arif Mehmandost – Azərbaycan

Arif Mehmandost – Yanına gəlmişəm

Arif Mehmandost – Tapşırdın məni

Arif Mehmandost – Oxşa saçlarımı

Arif Mehmandost – O gözəl gəlir

Elşən Əsgərov – Biz ki istəyirik